

# Səmimiyyət, yüksək qayğıkeşlik, tələbkarlıq...

Son illər Azərbaycanın inkişaf tempi aparıcı beynəlxalq iqtisadi qurumların diqqət mərkəzindədir. Bu iqtisadi mərkəzlər Azərbaycan modelinin sirlərini öyrənməyə səy göstərirlər, çünki ölkə iqtisadiyyatı getdikcə dünya iqtisadiyyatının bir hissəsi kimi özünü ifadə etməyə başlayıb. Bunun fonunda isə ölkəmizdə sosial sahəyə böyük diqqət göstərilir. Mühüm sosial proqramlar ildən-ilə genişlənir.

## *Xalqla canlı ünsiyyətə üstünlük verən dövlət başçısı hamıya şəxsi nümunədir*

Azərbaycan sosial mahiyyətli və humanizm prinsiplərinə söykənən bir dövlətdir. Bu isə Prezident İlham Əliyevin ölkə əhalisinin istək və arzularına qayğı ilə yanaşdığını, Azərbaycanda sosial ədalət prinsiplərinin bərqərar olmasına xüsusi diqqət göstərdiyini sübut edir.

Ümumiyyətlə, yüksək qayğıkeşlik, humanizm və xeyirxahlıq kimi əxlaqi-mənəvi keyfiyyətlər İlham Əliyev fenomeninin səciyyəvi cəhətlərindəndir. Hər bir insana qarşı diqqət, insanların problemlərini həssaslıqla duymaq qabiliyyəti, xalqın güzəranının yaxşılaşdırılmasının ali məqsəd kimi irəli sürülməsi İlham Əliyev humanizminin başlıca tərkib hissələri sayıla bilər.

**(davamı 3-cü səhifədə)**

# Səmimiyyət, yüksək qayğıkeşlik, tələbkarlıq...



# *Xalqla canlı ünsiyyətə üstünlük verən dövlət başçısı hamıya şəxsi nümunədir*

**(əvvəli 1-ci səhifədə)**

Hər bir vətəndaşın prezidenti olacağını vəd verən, özünü xalqın birinci xidmətçisi sayan, bütün məmurlar qarşısında təmiz işləmək, xalqla bir yerdə olmaq, təvazökar, işgüzar və vətənpərvər, vətənə sadiq, sədaqətli olmaq və s. kimi prinsiplər qoyan dövlət başçısı özü hər sahədə nümunə olmağa çalışır. Müxtəlif tədbirlərdə, görüşlərdə xalqla canlı ünsiyyət yaradır, səmimi olur. Ümumiyyətlə, səmimiyyət, həssaslıq, qayğıkeşlik kimi keyfiyyətlər Prezidentin davranışının səciyyəvi xüsusiyyətinə çevrilib.

İşğaldan azad edilmiş ərazilərə səfərləri zamanı ictimaiyyət nümayəndələri ilə görüşlərdə də biz dövlət başçısını məhz bu ampluada görürük.

2021-ci il aprelin 26-da Azərbaycan Prezidenti Cəbrayıl və Zəngilan rayonlarında oldu, quruculuq işləri ilə maraqlandı. Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən "Ağıllı kənd" pilot layihəsinin icrasında iştirak edən Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri ilə söhbət etdi: "Müharibədən və qələbəmizdən sonra dəfələrlə qeyd etdiyim kimi, bizimlə işləmək üçün dost ölkələrdən şirkətlər dəvət edəcəyik. Şadam ki, bu gün İsrail şirkəti, İtaliya şirkəti Azərbaycanın iki dost ölkəsindən olan şirkətlər bu mühüm layihəyə qoşulur və bizim beynəlxalq əməkdaşlığımız var. Türkiyədən, Çindən, İsraildən, İtaliyadan olan şirkətlər var, hamısı dost ölkələrdir. Bu, həqiqətən də yaxşı beynəlxalq əməkdaşlıqdır və mən əminəm ki, bu təcrübədən Qarabağın digər yerlərində istifadə edək. Çünki biz yüzlərlə kənd, qəsəbə və şəhərləri bərpa etməliyik", - deyən dövlət başçısı Zəngilan rayonunun sakinləri ilə də görüşdü. Qadın sakinlə söhbət edən Prezident onun doğma kəndi haqqında, həmkəndliləri barədə fikirlərini dinlədi. Torpaqlarımızın azad olunması münasibətilə dövlət başçısına minnətdarlıq edən qadın yaradılan sərbəstlikdən istifadə edib bayatı da söyləmişdi. Ağalı kənd sakini qadın: "Bu kənd varlı kənd olub, kolxozu ilə. Mənim belə bir bayatım var:

*Mən aşiqəm kəndə gəl,*
*Mən gəlmişəm, sən də gəl.*
*Ermənilərin dağıtdığı kəndə baxıb,*
*Təzə tikilən texnikalı kəndə bax"* - fikirlərinin davamı olaraq yeni salınan kəndə, ümumiyyətlə, torpaqlarımızı düşmən tapdağından azad etdiyinə görə dövlət başçısına minnətdarlığını bildirmişdi.

Oktyabrın 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdülər. Səmimi söhbət zamanı Qubadlı sakinləri öz fikir və düşüncələrini bildirib, arzu və istəklərini ifadə etmişdilər. Əməkdar müəllim Ədalət Əsədov:

*"Ey ulu məmləkətin Ali Baş Komandanı,*
*Şücaətin, təpərin dünyaya dastan oldu.*
*Sən bu xalqın qəlbində elə heykəl ucaltdın,*
*Tarix yaddan çıxarmaz, tarixə dastan oldun.*

Bu gün cənab Prezident biz qubadlıları Qubadlıya qonaq dəvət edib. Ulu Yaradandan diləyim budur ki, biz qubadlılılar da dəyərli Prezidentimizi, böyük insanımızı, böyük şəxsiyyətimizi - İlham Əliyevi Qubadlıya qonaq dəvət edək. Var olun, Allah sizi qorusun!

*Prezident İlham Əliyev:* Sağ olun, təşəkkür edirəm. Elə də olacaq. Yaxın gələcəkdə".

Birinci xanım Mehriban Əliyevanın sakinlərlə söhbəti zamanı ata-baba yurdlarına geri dönən sakinlər də torpaqlarımızın işğaldan azad olunmasına görə minnətdarlıqlarını bildirdilər. Qubadlı sakini öz hazırladığı əl işindən ibarət kəlağayını birinci xanıma təqdim etdi.

Azərbaycan xalçaçılıq sənətinin dünyada təbliğində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın əməyini xüsusi vurğulayan sakinlər işğaldan azad olunan torpaqlarda xalçaçılıq müəssisələrinin yaradılması ilə bağlı təkliflər səsləndirdilər. Birinci xanım bu təklifləri dəstəklədiyini bildirdi.

Vətən Müharibəsi Qəhrəmanı ilə söhbətdə də səmimiyyət duyulur: "Mən ehtiyatda olan bir əsgər kimi bir çox tədbirlərdə iştirak eləmişəm. Orada qeyd edirdim, cənab Ali Baş Komandanımıza dərin minnətdarlığımı bildirirəm ki, məni 19 yaşımda "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif edib. Şükür Allaha, bu gün öz doğma torpağımızda sizinləyik. Sizə təşəkkürümü bildirirəm ki, məni və döyüş yoldaşlarımı yüksək fəxri adlarla qiymətləndirmisiniz. Çox təşəkkür edirəm.

*Prezident İlham Əliyev:* "Çox sağ ol, mən sənə təşəkkür edirəm, sənin simanda bizim bütün qəhrəman övladlarımıza. Onlar sinəsini qabağa verib düşməni torpağımızdan qovublar. Bax, belə igidlər hesabına biz bu gün burada dayanmışıq" - demişdi.

Təbii ki, bu cür misalları çox çəkmək olar.

Prezident İlham Əliyevin əsas amalı ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi və Azərbaycan xalqını dünyaya qalib xalq kimi tanıtmaq olub. Dünyada həllini tapmayan münaqişə ocaqlarının mövcudluğu və bu ocaqların artması, daha da alovlanması fonunda İlham Əliyevin 30 illik işğala son qoyaraq Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi istiqamətində yürütdüyü prinsipial siyasət, böyük vətənpərvərlik, siyasi peşəkarlıq və gerçək liderlik keyfiyyətlərinin təcəssümüdür.

Prezident İlham Əliyevin liderlik keyfiyyətləri onun beynəlxalq nüfuzunun da artmasını təmin edən amillər sırasındadır. Dövlət başçısının beynəlxalq nüfuzu, istər ən yüksək kürsülərdə çıxışları zamanı Azərbaycan həqiqətlərini dünyaya çatdırması, düşmənin əsassız arqumentlərini tutarlı, tarixi, hüquqi faktlarla çözməsi, hər dövlətə ünvanlanan mesajların, ittihamların "öz dili və üslubu" ilə verilməsi, paralel olaraq xalqın nəbzini tutaraq sadə xalqa rəvan formada müraciətləri fonunda formalaşıb.

"Mən xalqımdan heç nəyi gizlətmirəm", - deyən ölkə başçısı, Ali Baş Komandan İlham Əliyev 44 günlük müharibə dövründə də cəbhədən xəbərləri məhz özü çatdırır, xalqını əmin edərək: "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" mesajını verirdi. Xalq isə öz liderinə inandı, güvəndi, onun ətrafında yumruq kimi birləşdi, Ali Baş Komandanla həmrəylik, birlik, inam, etibar, yüksək vətənpərvərlik, əzmkarlıq nümayiş etdirərək bir nəfər kimi dövlət başçısının yanında olduğunu göstərdi. Əli silah tutan hər kəs ordu sıralarına yazılmaq üçün növbəyə durdu. Bu, yeni şanlı tarixin başlanğıcı İlham Əliyevin uğurlu siyasətinin nəticəsi və böyük liderin qələbəsidir. Bu siyasətin, bu birliyin nəticəsində yenilməz Azərbaycan ordusu 44 gün ərzində işğal olunmuş torpaqları azad, düşməni isə darmadağın etdi. Dövlət-xalq-ordu birliyi, İlham Əliyev siyasəti, xalqın liderinə olan inamı, Azərbaycan əsgərinin yüksək peşəkarlığı qarşısında düşmən kapitulyasiyaya məcbur oldu. Azərbaycanın yeni tarixi yazıldı.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**